Beynəlxalq ictimai - siyasi, elmi - nəzəri jurnal

Tarix və Antropologiya

UOT 94 "19/..."
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.238

ƏDALƏT MUSTAFAYEV
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitunun "Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış Hərəkatı" şöbəsinin müdiri, t.ü.f.d.*
*E-mail: edalet_mustafaev@mail.ru*

# AZƏRBAYCAN ƏRAZİLƏRİNİN İŞĞALDAN AZAD OLUNMASINDA HEYDƏR ƏLİYEV STRATEGİYASI

XX əsrin 90-cı illərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində baş verən siyasi proseslər, superguclərin ikili siyasəti nəticəsində respublikada ictimai-siyasi gərginlik yaratmışdır. İşğalçı Ermənistan dövlətinin və dünyada erməniləri dəstəkləyən güclərin siyasətində birmənalı şəkildə Azərbaycan cəmiyyətində planlı şəkildə qarşıdurma yaratmaq, hakimiyyətdaxili ziddiyyətləri gərginləşdirmək, iqtisadi cəhətdən inkişafın qabağını almaq, müxtəlif qruplar arasında təbəqələşməni sürətləndirərək, ziddiyyətli problemlərin önə çıxmasını təşkil etmək, ümumilikdə neqativlərin baş verməsinə şərait yaratmaq üçün bütün vasitələrdən istifadə olunurdu. Belə bir məqamda cəmiyyət-hakimiyyət arasında birlik yaradaraq, müxtəlif sosial təbəqələri birləşdirərək, iqtisadi sahələrdə yeniliklərə yiyələnərək respublikada müsbət dəyişikliklərə nail olmaq üçün geniş pespektivli planın hazırlanması əsas məsələ idi. Bu baxımdan Azərbaycanda güclü şəxsin hakimiyyətə gəlişi belə qüvvələri narahat edirdi.

1988-ci ildən Azərbaycanın tarixi ərazisi olan Qarabağda baş verən siyasi proseslər SSRİ-nin xüsusi nəzarətində olaraq müxtəlif istiqamətlərdə idarə olunur, davam edən erməni təxribatı, qətliamlar aktiv hərbi müdaxilə nəticəsində soyqırımlarla nəticələnirdi. 1993-cü ildə Azərbaycanda ictimai-siyasi gərginliyin pik həddə çatdığı, böyük güclərin köməyi ilə Ermənistanın davamlı hərbi müdaxiləsinin dayanmaması nəticəsində Naxçıvan Ali Sovetinin sədri Heydər Əliyevin Bakıya gəlməsi zəruri məsələ kimi ortalığa çıxdı. Naxçıvan Ali Sovetinin sədri Ulu Öndər Heydər Əliyevin Azərbaycan hakimiyyətinə gəlişini təşkil etmək üçün o dövr əhalinin bütün sferalarda müraciəti və ziyalıların təkidli xahişini nəzərə alan Heydər Əliyev Bakıya gələrək taleyüklü bir məqamda hakimiyyəti nəzarətə götürdü. Heydər Əliyevin Bakıya gəlişi, təkcə daxildə deyil, xarici qüvvələri də narahat edirdi. "İyunun 15-də Heydər Əliyev Respublika Ali Sovetinin sədri seçildi, iyunun 24-dən isə Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı, oktyabrın 3-də isə xalq özünün böyük oğlunu ölkə Prezidenti seçdi" [5]. İctimai-siyasi vəziyyətin yaxşılaşdırılması, ideoloji təbliğatın düzgün aparılması, yeni ideologiyanın yaranmasını reallaşdırmaq üçün düzgün strategiyanın seçilməsi əsas məsələ kimi qarşıda dururdu. Məhz bu baxımdan, Azərbaycançılıq ideologiyası ideoloji boşluğun doldurulması məqsədilə doğru olaraq Heydər Əliyev tərəfindən Azərbaycan reallığında öz əksini tapan məsələ idi. İlk olaraq supergücləri neytrallaşdırmaq məqsədi ilə Heydər Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra ilk səfərini Fransaya etdi. Növbəti mərhələlərdə Heydər Əliyev Qarabağın beynəlxalq səviyyədə Azərbaycanın tarixi ərazisi olmasını faktlarla sübut etməyə çalışmış, dünya ictimaiyyətinə həqiqəti çatdırmaq, erməni yalanlarını ifşa etmək üçün bütün siyasi vasitələrdən istifadə etmişdir. "1994-cü il Budapeşt sammiti, 1996-cı il dekabrın 2-dən 4-dək Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilmiş ATƏT-in tarixi zirvə görüşündə münaqişənin həlli prinsipləri müəyyənləşdirilmişdir" [6]. İkili siyasətə baxmayaraq baş verən proseslərdə dünyanın əksər dövlətləri tərəfindən Azərbaycanın haqq mövqeyi müdafiə olundu.

1994-cü ildən Rusiyanın müxtəlif şəhərlərində mütəmadi xarakter alan, Ermənistan və Azərbaycan nümayəndələrinin görüşündə Rusiyanın hazırladığı plan müzakirə edildi. Rusiyanın təklif etdiyi "Silahlı münaqişəyə son qoymaq və onun nəticələrini ləğv etmək haqqında" saziş tərəflərin müzakirəsinə verildi. Sənədin əvvəlində tərəflərin BMT TŞ-nın 822, 853, 874, 884 saylı qətnamələrinin tamamilə həyata keçirilməsinə kömək göstərmək nəzərdə tuturdu [17]. Bütün danışıqlarda silahlı münaqişəyə son qoymaq çağırışları olsa da, bütün bunlar ictimai fikri yayındırmaq üçün sadəcə göstərilən təşəbbüs olaraq qalır, bölgədə ermənilərin istehkam quruculuq işlərinin möhkəmləndirilməsinə xidmət edirdi.

Azərbaycan Prezidenti ilk növbədə Rusiya Federasiyası ilə siyasi dialoqa üstünlük verərək müxtəlif istiqamətlərdə əlaqələrin inkişafına önəm verdi.

Qarabağ müharibəsində döyüşün dayandırılması məqsədilə keçirilən görüşlər, beynəlxalq sənədlər seriyasında 1994-cü il mayın 4-5-də qəbul edilmiş Bişkek protokolu atəşkəs üçün qəbul edilmiş vacib sənədlər sırasındandır. Qırğızıstanın Bişkek şəhərində MDB Parlamentlərarası assambleyanın və Rusiya Federasiyasının Xarici işlər Nazirliyinin təşəbbüsü ilə keçirilən görüşdə imzalanan protokolla atəşkəs üçün zəmin hazırlanmış oldu. Parlamentlərarası assambleyanın sədri V.F.Şumeyko və Qarabağla bağlı sülhməramlı assambleya qrupunun rəhbəri M.Ş.Şerimkulova daimi sülhməramlı əməkdaşlıq qüvvələrinin yaradılmasını bildirirdilər [15]. Ermənistan-Azərbaycan Qarabağ münaqişəsində atəşkəsin imzalanması Rusiya müdafiə naziri P.S.Qraçov, Rusiya Federasiyasının xarici işlər naziri A.V.Kozırev və V.N.Kazimirovun rəhbərliyi ilə qəbul edilən sənədlər tərəflərə təqdim olundu.Təqdim edilmiş sənəd 5 may 1994-cü il Bişkek protokolu, 18 fevral 1994-cü il sənədlərini əsas tutaraq döyüşün dayandırılmasını ehtiva edirdi. Sənəd mayın 9-da Bakıda, mayın 10-da Yerevanda, mayın 11-də Stepanakertdə imzalandı [16]. Sənədin Xankəndidə imzalanması Azərbaycan tərəfindən narazılıqla qarşılandı. Burada Vladimir Kazimirovun xüsusi cəhdi və Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin marağında olan məsələ kimi ortalığa çıxdı. Nəticədə,“... 1994-cü il mayın 12-də ATƏT-in Minsk qrupunun fəaliyyəti və Rusiyanın vasitəçiliyi ilə atəşkəs qüvvəyə mindi” [7]. Bundan sonra uzunmüddətli şablon xarakterli danışıqlar seriyası gündəliyə gəldi. Araşdırmalar birmənalı şəkildə onu deməyə əsas verir ki, aparılan danışıqlar sülhün yaranmasına deyil, ermənilərin Azərbaycan torpaqlarında möhkəmlənməsinə xidmət etmişdir.

Yaranmış mürəkkəb geosiyasi vəziyyətdə Heydər Əliyev Azərbaycana qarşı təzyiqləri azaltmaq üçün bütün vasitələrdən istifadə etməyi bacardı. İqtisadi layihələrin həyata keçirilməsinə mane ola biləcək dövlətlərlə də siyasi-iqtisadi əlaqələri gücləndirərək, Qərb və ABŞ-nin neft şirkətlərinin cəlb edilməsində, respublika üçün əhəmiyyətli bir şərtlər altında kontraktların imzalanmasına önəm verdi. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi və reallaşması dövründə qonşu dövlətlərdən təzyiqlərin artmasına baxmayaraq, Heydər Əliyevin balanslaşdırılmış siyasi xəttinin olması mövcud təhlükələrə qarşı sanki bir sipər oldu. İqtisadi layihələrin həyata keçirilməsində ən vacib məsələ fövqəldövlətlərin Azərbaycana marağını artırmaq, iqtisadi gəlirlərin sayəsində əhalinin sosial rifahının yaxşılaşdırılmasına nail olmaq, bir milyon qaçqın və məcburi köçkün əhalinin mənzil-tikinti işlərinin həyata keçirilməsini təşkil etmək, bu insanların təhsil səviyyəsinin yaxşılaşdırılmasını təşkil etmək, gənclərin təlim-tərbiyəsinin düzgün tənzimlənməsi və onlardan vətənin müdafiəsində iştirak edə biləcək sağlam insanların yetişməsini təşkil etmək kimi məsələlərə önəm vermişdir [4].

Ümummilli Liderin hərb məsələsinə xüsusi önəm verməsi diqqət çəkən məqamlardandır. Azərbaycan ordusunun təşkili, zabit kadr heyətinin yaxşılaşdırılması, silah təminatında müasir tələbatlara cavab verən addımların atılması, hərbi məktəblərin maddi-texniki təminatının yaxşılaşdırılması, ordunun NATO standartlarına uyğunlaşdırılması, gənclərin orduya marağının artırılması kimi vacib məsələləri həyata keçirmək üçün addımlar atıldı. Perspektivdə olan işlərin həyata keçirilməsi üçün qardaş Türkiyə dövlətinin mövcud imkanlarından faydalanmaq üçün “Bir millət, iki dövlət” konsepsiyasını irəli sürərək zəruri tədbirlərin həyata keçirilməsində bütün əlaqələrin qarşılıqlı mübadiləsini reallaşdırdı. Burada həm Azərbaycan cəmiyyətinin Türkiyə ilə bağlı siyasətinə önəm verildi, həm də Türkiyə cəmiyyətində Azərbaycanla bağlı sosial-siyasi-iqtisadi əlaqələri gücləndirmək üçün kütləvi informasiya vasitələrindən düzgün istifadəyə şərait yaradıldı. Nəticədə Türkiyənin vasitəsilə Azərbaycanı informasiya blokadasından çıxartmağa nail olan dövlət başçısı, beynəlxalq təşkilatlarda müsbət dəyişikliklərə nail oldu. Həmçinin düzgün olaraq yaranmış qarşılıqlı əlaqə nəticəsində Azərbaycanın təhlükəsizlik siyasəti Türkiyənin dövlət siyasətində əsas amillərdən biri kimi meydana gəldi. Vaxtaşırı Türkiyənin Qarabağ məsələsində fəaliyyətinə önəm verən dövlət başçısı ATƏT-in Minsk Qrupunda Türkiyənin yer almağına çalışsa da, təəssüflər olsun ki, nə regional, nədə ki supergüclərin narahatlığı ucbatından bu baş tutmadı [2]. Türkiyənin güc nazirliklərinin diqqətinin Qarabağ məsələsinə yönəldilməsində dövlətin xüsusi marağının olması təsadüfi deyildir

Müvəqqəti sülhə imza atıldıqdan sonra Heydər Əliyev ilk növbədə iqtisadi layihələrin həyata keçirilməsinə başladı. “Böyük İpək yolu” istiqamətində addımlar atılmağa başladı. “1996-cı il mayın 13-də Türkmənistanın Saraxs məntəqəsində Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan birlikdə

tranzit yükdaşımaları və dəmir yolu nəqliyyatının əlaqələndirilməsi ilə bağlı müqavilənin imzalanması oldu. 1998-ci sentyabrın 7-8-də Prezident Heydər Əliyevin təşəbbsü ilə Bakıda “Böyük İpək Yolu” beynəlxalq konfransı keçirildi. Dünyanın 32 ölkəsi və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi bu konfransda yeni İpək Yolunun tranzit ölkələr üçün əhəmiyyəti bildirildi və Bakıda onun mərkəzi (mənzil qərargahı) yaradıldı” [9]. Burada böyük dövlətlərin marağını Cənubi Qafqaza yönəltmək önəmli əhəmiyyət kəsb edirdi.

Ermənistan-Azərbaycan arasında atəşkəsin imzalanmasından sonra Cənubi Qafqazda həm dövlətlərarası, həm də regional münaqişələrdən istifadə edərək siyasi mübarizə daha da gücləndi. Münaqişənin həlli istiqamətində Minsk qrupu dövlətlərindən ABŞ-da hadisələrlə yaxından əlaqə saxlayır, ayrı-ayrı nümayəndələrini fikirləri səsləndirilirdi. 1998-ci il martın 31-də C. Telbot “Amerikanın Cənubi Qafqaz siyasəti” mövzusunda çıxış edərkən qeyd edirdi ki, “...tərəflərin razılığa gələ bilmədiyi Qarabağın statusu məsələsidir” [10]. C.Telbot hansı statusu nəzərdə tutur tam açıqlamır. Araşdırma nəticəsində belə deməyə əsas vardır ki, atəşkəsdən sonra Ermənistanın dövlət siyasətində Rusiya ilə hərbi əməkdaşlığı gücləndirmək planlarının tərkib hissəsində yenə işğalçılıq, anneksiya siyasəti təşkil edirdi. Bu məqsədlə Rusiya Federasiyası işğalçı Ermənistanla hərbi əməkdaşlığına aid tədbirlər planı işləyib hazırlayır, forpost dövləti öz potensialından da artıq gücləndirməyə çalışırdı. “Rusiya Federasiyası Müdafiə Nazirliyinin “Zakafqaziyanın hərbi gündəliyi” qəzetinin 3 dekabr 1997-ci il tarixli nömrəsində “Ermənistan-Rusiya hərbi əməkdaşlığı inkişafını davam etdirir” adlı məqaləsində 1995-ci ildə Ermənistan və Rusiya prezidentləri “Rusiya hərbi bazalarının Ermənistanda yerləşdirilməsi barədə müqavilə imzalamış və hərbi əməkdaşlıq məsələlərinə dair imzalanmış 18 sənədə daha 12 protokol və saziş əldə edilmişdir [8]. Həmin sənədlərdə Ermənistan-Rusiya hərbi əməkdaşlığının bir çox sahələrini əhatə edən, “Zaqafqaziyada hərbi koalisiya qruplaşmalarının yaradılması”, “Operativ və döyüş hazırlığı sahəsində tədbirlərin birgə planlaşdırılması” kimi sənədlərin qəbul edilməsi şimal qonşumuzun Cənubi Qafqazla əlaqədar siyasətinə aydınlıq gətirir.

Ulu öndər Heydər Əliyev Ermənistanla danışıqlara vasitəçisiz olmaqla əlaqələrin qurulmasına da xüsusi əhəmiyyət verirdi. İşğalçı dövlətin heç bir müstəqil addım atması mümkün olmadığına görə daima qeyri-konstruktiv mövqenin şahidi oluruq. Ermənistana hərbi dəstəyin verilməsi, maddi-siyasi köməyə baxmayaraq, siyasi sabitliyin tədricən pozulması 1998-ci il fevralın 3-də o zamankı prezidentin könüllü istefasına gətirib çıxardı [1].

Heydər Əliyev Türkiyənin Cənubi Qafqazda baş verən siyasi proseslərə yaxından müdaxilə etməsini məqbul sayırdı.1998- ci il fevralın 5-də ATƏT-in Minsk qrupunda Türkiyənin xüsusi səfiri Əli Hikmət Alpı qəbul edən Heydər Əliyev Minsk Qrupunda Türkiyənin xüsusi səlahiyyətli nümayəndəsinin fəaliyyətini Qarabağ münaqişəsinin həllinə töhfə verə biləcəyini bildirmişdir [2]. Məhz Türkiyənin addım-addım bölgəyə yaxınlaşmasını zəruriliyini qəbul etdirməyə çalışan Heydər Əliyev regionda baş verənlərə qardaş dövlətin təsiri olacağını düzgün qiymətləndirirdi.

1998-ci il iyulun 10-da Azərbaycan dövlət başçısı postsovet dövlətlərinin jurnalistlərinin böyük bir qrupunu qəbul etmişdir. Prezident 1988-ci il Ermənistanın Azərbaycana qarşı hərbi müdaxiləsinin mərhələlərini təhlil etmiş və fərqli zamanlarda rəhbərlikdə olan şəxslərin, ələlxüsus, M.S.Qorbaçovun timsalında neqativ siyasətə münasibət bildirmişdir. Rusiya ilə siyasi-iqtisadi əlaqələrə önəm verən Azərbaycan Prezidenti bildirmişdir ki,:... “Rusiya ilə dostluq münasibətlərinin olmasını istəyirəm, ancaq imperiya Rusiyası ilə deyil, demokratik Rusiya ilə. Keçmiş Rusiya ilə deyil, bugünkü, daha çox gələcək Rusiya ilə” [3]. Buradan da göründüyü kimi əsas prioritet istiqamətlər bərabərhüquqlu əsaslarla müstəqil siyasət yeritmək nəzərdə tutulurdu.

Heydər Əliyev ideyalarının reallaşması, ərazilərin işğalçılardan azad olunması üçün seçilmiş taktika və strategiyanın uğurla davam etdirilməsi planı Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Məhz ideoloji-siyasi xəttin, azərbaycançılıq konsepsiyasının, “Bir millət, iki dövlət” konsepsiyası uğurla davam etdirildi [12]. Qarabağ Zəfərindən sonra 2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin şəhərə tarixi səfərini zaman gəldiyini diqqətə çatdıraraq bildirdi ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər” [14].

Azərbaycan-Türkiyə Cümhuriyyəti arasında bağlanmış Şuşa bəyannaməsinin meydana gəlməsi Ümummilli lider Heydər Əliyevin dövlətlərarası inkişaf strategiyasından irəli gələn bir məsələ idi. Bu sənədin bəndlərinin təhlili onu deməyə əsas verir ki, dövlət başçıları beynəlxalq sənədlərə, əlxüsus, 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək, həmçinin müstəqillik dövründə, məhz, Heydər Əliyevin də xüsusi dəsti-xətti ilə qəbul edilmiş 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni, Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq bir-birinin təhlükəsizliyinin qorunması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəkləri haqqında öhdəlik götürmüşlər [13]. İki dövlət arasında bağlanmış bu sənəd bütün detalları ilə beynəlxalq səviyyədə hüquqi əsaslara söykənir.

Ümummilli Lider Qarabağın işğalçılardan təmizlənməsində sülh yolunu əsas, vacib element hesab etmişdir. Ermənistan tərəfi isə daima qeyri konstruktiv mövqe nümayiş etdirmiş, XİX əsr və XX əsrlər boyu Rusiyanın köməyi ilə əldə etdikləri ərazilərin onların nəzarətində qalacaqlarını düşünürdülər. Burada isə nə müstəqil Azərbaycan dövlətinin perspektivlərini, nədə tarixi şəxsiyyət rolunu nəzərə almamışdılar.

Beləliklə Heydər Əliyevin Azərbaycan ərazilərinin azad olunması üçün siyasi dəst-xəttinin reallaşması, strategiyanın və taktikanın düzgün seçilməsi 2022-ci ildə qələbəni reallaşdırdı. Yuxarıda qeyd olunan məsələlərdən hər hansı birinin düzgün aparılmaması əldə olunmuş qələbəyə mane olar, müsbət nəticə əldə olunmazdı. Eyni zamanda Qarabağ Zəfərində Ali Baş Komandan kimi bir liderin yetişməsində, onun dünya siyasətinə elmi-siyasi cəhətdən düzgün yiyələnməsi qələbəmizin əsasını təşkil edirdi. Məhz əldə olunmuş Zəfər qələbəsində Heydər Əliyev strategiyası, İlham Əliyev fenomeninin vəhdət təşkil etməsi müasir Azərbaycan tarixinin əsasını təşkil edən qəhrəmanlıq səhifələrindəndir.

**Açar sözlər:** *Azərbaycan, Heydər Əliyev, işğalçılıq siyasəti, Ermənistan, ordu quruculuğu, Ermənistan - Rusiya hərbi əməkdaşlığı.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Arif, Q. Ermənistan prezidenti L. Ter-Petrosyan istefa verdi // Xalq. 1998, 5 fevral.*

*2. Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunda Türkiyənin xüsusi səfirini qəbul etmişdir // Xalq. 1998, 6 fevral.*

*3. Azərbaycan Prezidenti Heydər Əliyev Moskva, Sankt-Peterburq, MDB və Baltiya ölkələrinin jurnalistlərinin böyük bir qrupu ilə görüşündə çıxışı və müsahibəsi. URL: https://lib.aliyev-heritage.org/az/8009849.html*

*4. Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2011 ) / Baş red: Əli Həsənov, red: Qurban Sadıqov; Gəray Fərhadov. - Bakı: - 2012. - 224 s.*

*5. Hacıyev, Q.Ə. Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi. - Bakı: Təknur, - 2014. - 400 s.*

*6. Hacıyev, Q.Ə. Qarabağ tarixi. –- Bakı: Təknur, - 2014. - 228 s.*

*7. Karabağ sorular ve gerçekler URL: http://www.smashwords.com/books/download/38293/6/latest/1/0/karabag-sorular-ve-gercekler.txt*

*8. Mirzəbəyli, İ. Yerevanın militarist siyasəti Ermənistan-Azərbaycan münaqişəsini lokallıqdan çıxara bilər // Xalq. 1998, 4 fevral.*

*9. Mustafayev, Q.X. Azərbaycanın müasir dövlətçilik tarixi. - Bakı: Mütərcim, - 2007. -125 s.*

*10. Nəsibli, R. Qarabağ adair sülh danışıqları tezliklə bərpa olunmalıdır. C. Telbottun fikri belədir // Xalq. 1998, 4 aprel.*

*11. Qaçqın və Məcburi Köçkünlərə Prezident qayğısı (2003-2013). - Bakı: - 2013. - 312 s.*

*12. Qurbanov, F. Mədətli, E. Bir millət-iki dövlət: fəlsəfi-tarixi təhlili. – Bakı: 2020, - 232s.*

*13. Şuşa Bəyannaməsinin tam mətni. URL: https://report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/*

*14. Ulu öndər Heydər Əliyev: Şuşa əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir. URL: https://Ulu_onder_Heyder_Aliyev_Susa_eziz_bir_seherdir_eziz_bir_torpaqdir_eziz_bir_qaladir_eziz_bir_abidedir- https://azertag.az/xeber/1689597*

*15. Жирохов, М.А. Меч и огонь Карабаха. Хроника незнаменитой войны. 1988-1994. - М.:*

*Центрполиграф, - 2012. - 285 с.*

*16. Казимиров, В.Н. Мир Карабаху. Посредничество России в урегулировании Нагорно-Карабахского конфликта. – М.: Изд. Международные отношения, – 2009. - 256 с.*

*17. Три президента встретятся в Астрахани. Азербайджан, Армения и Россия продолжат обсуждать судьбу Нагорного Карабаха. URL: https://punkt-a.info/news/glavnoe/tri-prezidenta-vstretyatsya-v-astrakhani-azerbaydzhan-armeniya-i-rossiya-prodolzhat-obsuzhdat-sudbu-*

**Adalat Khankishi oglu Mustafayev**
***Head of the "History of the Karabakh War and the Great Return Movement" department of the History Institute named after A.A. Bakikhanov of ANAS, Ph.D.***

**Heydar Aliyev's strategy in liberating Azerbaijani territories from occupation**

**SUMMARY**

he article analyzes all aspects of the struggle of the Great Leader Heydar Aliyev for the strengthening of Azerbaijani statehood since he came to power in Azerbaijan in a complex socio-political situation. Since 1993, benefiting from the help of the great powers, positive steps have been taken to prevent the ongoing annexation by the invading Armenia, and by organizing the unity of the internal forces, taking into account the development of the state in all directions. In the study, the attitude to the military cooperation between Armenia and the Russian Federation was also expressed. The state of Azerbaijan, establishing relations with all international organizations, tried to introduce Karabakh to the world community as the territory of Azerbaijan, and tried to implement all the necessary tactics and strategies to accept the neutrality of the great powers. Heydar Aliyev's political-ideological, tolerance, Azeri ideology, building an army, achieving high achievements in military science, improving the material and technical base of the army, forming the unity of the people and power, and cultivating a great leader in the person of Mr. Supreme Commander-in-Chief Ilham Aliyev, brought Azerbaijan's influence over Armenia. The realization of his victory is reflected in the conducted research.

**Keywords:** *Azerbaijan, Heydar Aliyev, policy of occupation, Armenia, army building, Armenian-Russian military cooperation.*

**Адалет Ханкиши оглы Мустафаев**
***Заведующий отделом «История Карабахской войны и движения Великого Возвращение» Института истории им. А.А. Бакиханов НАНА, доктор философии по истории***

**Стратегия Гейдара Алиева по освобождению азербайджанских территорий от оккупации**

**РЕЗЮМЕ**

В статье анализируются все аспекты борьбы Великого лидера Гейдара Алиева за укрепление азербайджанской государственности с момента его прихода к власти в Азербайджане в сложной общественно-политической ситуации. С 1993 года, пользуясь помощью великих держав, были предприняты позитивные шаги по предотвращению продолжающейся аннексии вторгшейся Арменией, а также путем организации объединения внутренних сил с учетом развития государства во всех направлениях. В исследовании также было выражено отношение к военному сотрудничеству между Арменией и Российской Федерацией. Азербайджанское государство, установив отношения со всеми международными организациями, пыталось представить Карабах мировому сообществу как территорию Азербайджана, пыталось реализовать все необходимые тактики и стратегии для принятия нейтралитета великих держав. Политико-идеологическая, толерантная, азербайджанская идеология Гейдара Алиева, построение армии, достижение высоких достижений в военной науке, улучшение материально-технической базы армии, формирование единства народа и власти, воспитание великого лидера в лице Господин Верховный Главнокомандующий Ильхам Алиев привнес влияние Азербайджана на Армению, осознание его победы отражено в проведенном исследовании.

**Ключевые слова:** *Azerbaijan, Гейдар Алиев, политика оккупации, Армении, строительство армии, армяно-российское военное сотрудничество.*